ULUSLARARASI TÜRK LEHÇE ARAŞTIRMALARI DERGİSİ (TÜRKLAD), 8. CİLT, 2. SAYI, 2024, 341 - 349. s., TÜRKİYE

https://doi.org/10.30563/turklad.1503600

İntihal / *Plagiarism*

*This article was checked by* turnitin programında bu makale taranmıştır

**Makale Bilgisi / *Article information***

Makale Türü / *Article types* : Araştırma Makalesi / *Research article*
Geliş Tarihi / *Received date* : 23.06.2024
Kabul Tarihi / *Accepted date* : 05.12.2024
Yayın Tarihi / *Date published* : 20.12.2024

**Atıf / *Citation***

Adışirinov, N. (2024).Türk Etnik-Epik Düşüncəsində Çadır Obrazı (“Kitabi-Dədə Qorqud” əsasında”). *Uluslararası Türk Lehçe Araştırmaları Dergisi / International Journal of Turkic Dialects (TÜRKLAD)*, 8. Cilt, 2. Sayı, 341-349.

# TÜRK ETNİK-EPİK DÜŞÜNCƏSİNDƏ ÇADIR OBRAZI (“KİTABİ-DƏDƏ QORQUD” ƏSASINDA)

*The image of a tent in turkic ethnic-epic thinking (based on "kitabi-dede gorgud")*

**NİZAMİ ADIŞİRİNOV**[1]

## Öz

Çadır Türk-etnik mədəni sisteminin ən vacib elementlərindən hesab edilirdi. Çünki, əsasən, köçəri həyat tərzi keçirən Türklər üçün tez bir zamanda qurulub söküləbilən yaşayış yeri daha rahat idi. Bu yaşayış məskəninin quruluşca müxtəlif növləri mövcud idi. “Dədə Qorqud”da çadır yurd, ağ ban ev, otaq, çadır, oda, gərdək, bargah və s. adlarla təsvir olunur. Çadır eyni zamanda təkcə yaşayış yeri kimi yox, həm də mifoloji düşüncənin bədii ifadə şəkli olan dünya modelini də simvolizə edirdi. Türklərin inanc və düşüncə tərzi onların çadır ənənəsinə də yansımışdır. Bu da öz növbəsində göstərir ki, çadır Türk mədəniyyətinin ən vacib ünsürlərindəndir.

Çadır Türk düşüncəsində kiçik dövlət nizamını – ailəni simvolizə etməklə bərabər, həm də geniş mənada Türkün arxaik inancında dünya modelini simvollaşdırırdı. Türk öz epik təfəkküründə çadırdan dünyanı metoforik qavrama vasitəsi kimi istifadə edirdi. Çadırın quruluşu, dirəkləri, dizaynı dünyanı xatırladırdı. Türkün qurduğu çadır həm də həyatın başlanğıcı sayılan dörd ana ünsürü (od, su, hava, torpaq) özündə ehtiva edirdi. Çadırın “göy ala çəmənin üstündə qurulması” onu torpaq ünsürü ilə, içərisində “qorluq” adlanan ocaq yerinin olması isə onun od ünsürü ilə əlaqəli olduğunu göstərir. Çadırın üst tərəfində havanın rahat daxil olmasını, tüstünün rahat çıxa bilməsini təmin edən dəlik isə onu hava ünsürü ilə əlaqələndirir. Su isə hər zaman Türk tayfaları üçün ən önəmli həyat qaynağı hesab edilirdi.

**Anahtar Kelimeler:** Çadır, Yurd, Ağ Ban Ev, Otaq, Dədə Qorqud

[1] Dr., Azərbaycan Milli Elmlər Akademiyası, Folklor İnstitutu.
E-mail: drnizami1983@gmail.com
ORCİD İD: 0009-0003-0865-2855

**Abstract**

The tent was considered one of the most important elements of the Turkic-ethnic cultural system. Because, mainly for the Turks who lead a nomadic lifestyle, a place of residence that can be built and dismantled quickly was more comfortable. There were different types of this settlement structure. "Dade Gorgud" has a tent home, a white house, a room, a tent, a room, a shed, a bargah, etc. described by names. At the same time, the tent symbolized not only a place of residence, but also a model of the world, an artistic expression of mythological thought. The belief and way of thinking of the Turks is also reflected in their tent tradition. This in turn shows that the tent is one of the most important elements of Turkish culture.

While the tent symbolized the small state order - the family in Turkic thought, it also symbolized the world model in the archaic belief of the Turk in a broad sense. In his epic thinking, the Turk used the tent as a metaphorical means of understanding the world. The structure, poles, and design of the tent were reminiscent of the world. The tent built by the Turk also contained the four mother elements (fire, water, air, earth) which are considered the beginning of life. "Building the tent above the sky and the grass" shows that it is related to the element of earth, and the presence of a hearth inside it, called "gorglug", indicates that it is related to the element of fire. On the upper side of the tent, the hole that ensures easy entry of air and easy exit of smoke connects it with the element of air. Water was always considered the most important source of life for Turkic tribes.


**Keywords:** Tent, Yurt, White House, Room, Dede Gorgud

## 1. Giriş

Məlum məsələdir ki, yaşadığı coğrafi ərazi insanın sosial-mədəni mühitinə, onun həyat tərzinə ciddi təsir göstərir. Bu mənada, tarix boyu Türküstanın böyük çöllərində yaşayan Türk tayfalarının köçəri həyat tərzini mənimsəməsi də təbii qarşılanmalıdır. Köçəri Türk tayfalarının həyatları əsrlərlə səfərlərdə və ya yaylaq-qışlaq arasında keçdiyi üçün öz həyat tərzinə uyğun olaraq həm sökülməsi, qurulması asan olan, həm də daşınması daha rahat olan çadır tipli yaşayış yerlərinə üstünlük vermişlər.

Çadır Türk düşüncəsində kiçik dövlət nizamını – ailəni simvolizə etməklə bərabər, həm də geniş mənada Türkün arxaik inancında dünya modelini simvollaşdırırdı. Türk öz epik təfəkküründə çadırdan dünyanı metoforik qavrama vasitəsi kimi istifadə edirdi. Çadırın quruluşu, dirəkləri, dizaynı dünyanı xatırladırdı. Türkün qurduğu çadır həm də həyatın başlanğıcı sayılan dörd ana ünsürü (od, su, hava, torpaq) özündə ehtiva edirdi. Çadırın "göy ala çəmənin üstündə qurulması" onu torpaq ünsürü ilə, içərisində "qorluq" adlanan ocaq yerinin olması isə onun od ünsürü ilə əlaqəli olduğunu göstərir. Çadırın üst tərəfində havanın rahat daxil olmasını, tüstünün rahat çıxa bilməsini təmin edən dəlik isə onu hava ünsürü ilə əlaqələndirir. Su isə hər zaman Türk tayfaları üçün ən önəmli həyat qaynağı hesab edilirdi. Türklər hər zaman bol sulu çayların sahilində, bol otlaqlı vadilərdə özlərinə yurd salırdılar. Suyu keçmək Türkün arxaik təfəkküründə yeni həyatın başlanğıcı sayılır. Dədə Qorqud da Banıçiçək üçün elçilyə gedəndə qızın qardaşı Dəli Qarcara belə deyir ki, "aqındılı görklü suyunu keçməyə gəlmişəm." Su mifik təfəkkürdə iki dünyanın sərhədi sayıldığı üçün "suyu keçmək" həm də yeni həyatı, yeni başlanğıcı simvolizə edirdi. "Kitabi-Dədə Qorqud" dastanının birinci boyunda təsvir olunan "üç çadır" obrazı da əslində eyni ideyanın – yeni həyatın, soyun davamının metaforik ifadə şəklidir. Ağ və qırmızı çadır ailə və dövlət üçün qürur, fəxr hissidirsə, qara çadır ailə, dövlət üçün utanc mənbəyi idi. Göründüyü kimi, çadır təkcə yaşayış yeri olmaqla qalmır, Türkün təfəkküründə ailəni, dövləti, daha geniş mənada da dünya modelini simvolizə edirdi. Məhz bu baxımdan Türk cəmiyyətində yeni qurulan ailənin mütləq öz çadırı – yurdu olmalı idi. Çadır həm də yurd yerinin, ata ocağının simvolu sayılırdı. Bu mənada, çadır Türkün təfəkküründə ancaq sığınacaq kimi deyil, həm də dünyanın mifik koddan dərki hesab edilirdi.

**2. Əsas hissə**

Görkəmli tarixçi Lev Qumilyov bu barədə belə yazırdı; "Təbiətlə sıx təmasda olan köçərilər üçün çadırlarda yaşamaq əyləncə yox, zərurət idi. Bir çox Çin və Bizans mənbələri VI-IX əsrlərə aid xan yurtlarını – çadırlarını heyranlıqla təsvir etmişlər." (Qumilyov, 2016: 90). Çadır köçəri Türk tayfalarının sosial-mədəni həyatının ən vacib, ən mühüm atributlarından sayılırdı. Vaxtının çoxunu at belində, səfərlərdə, hərbi yürüşlərdə keçirən Türklər asudə vaxtlarında da yenə at belində müxtəlif oyunlar, mərasimlər icra edir, ova çıxır, cövkən oynayır, buta atırdılar.

Çadır Türk epik təfəkkürünün də çox təsvir edilən predmetləri sırasındadır. Buna görə də eposlarda, dastanlarda çadırın təsviri müxtəlif aspektlərdən xarakterizə olunur.

Bir çox tədqiqatçılar "çadır" sözünün Fars dilində "çatur" (Türk dilində "çatmaq") sözündən törədiyini iddia edirlər. Yəni Fars dilində işlənən "çatur" sözü də əslində Türk mənşəli "çatmaq" feilindən törəmişdir.

Başqa bir fikir isə Sanskrit dilində işlənən və sonradan Fars dilinə keçən "çetr" (kölgəlik) sözündən əmələ gəldiyini iddia edir (Bozkurt, 1993: 158).

Mahmud Kaşğarlı'nın "Divanü lüğat-it türk" əsərində də çadır sözü "çatır", "çaçır", "çaşır" şəklində verilir (Kaşgarlı, 2006: 406). Oğuzlar arasında "çaşır" forması da işlənirdi ("KDQ, 2004: 65). Hətta "Dədə Qorqud"da bu ifadənin "çətir" (çətir otaq) formasına da rast gəlinir (KDQ, 2004: 54).



Fikrimizcə, "çadır" ifadəsi əski Türk dilində işlənən "çatmaq" feilinin Fars dilinə keçərək "çatur-çater-çadar" şəklini almasının nəticəsidir. Əlbəttə, köçəri həyat tərzi keçirən Türklərin məişətində heyvandarlıqla bağlı yemə, içmə, geyim, yaşam ünsürləri üstünlük təşkil etməli idi.

Çadır Türk xalqlarının təfəkküründə dünya modelini simvolizə edirdi. Qızılı və ya ağ hökmdar çadırı xanlığın əsas simvollarından sayılırdı.

"Kitabi-Dədə Qorqud"da çadır sözünün müxtəlif formalarda (*Altun ban ev, otaq, oda, ev, alaçıq, yurd, çadır, gərdək*) işlənməsi də göstərir ki, türklər arasında fərqli çadır tipləri mövcud olmuşdur.

"Yurt" adlanan çadırın eni 5-7 metr, hündürlüyü 2-4 metr arasında dəyişirdi. "Yurtanın karkası dörd, altı, səkkiz, bəzən on tərəfli qurulurdu. Tərəflərin çoxluğu var-dövləti, imkanlılıq dərəcəsini göstərirdi." (Abbasov, 2021: 57). Türk çadırlarının qapısı Şərqə açılırdı. Bunun səbəbi Türk mifoloji düşüncəsində Günəş Anaya duyulan sevgi və hörmətdən qaynaqlanırdı. Türklər hər səhər üzügünəşə Günəşi salamlamaqla günlərinin uğurlu keçməsini diləyirdilər. Günəş həm də həyatın qaynağı kimi qəbul edilirdi (Jean, 2015: 120). Türk xaqanları da diz üstə çökərək Günəşi üç dəfə salamlayardılar (Ögəl, 2006: 242). Monqol tayfalarında isə cənub müəyyən bir işin xeyirxah başlanğıcını bildirdiyi üçün çadırın qapısı bu istiqamətə açılırdı. Hər səhər çadırdan çıxanda üzü cənuba salam verməklə işlərin uğurlu olacağına inam mövcud idi. Çadırın qapısının əks tərəfi – şimal isə yuxarı baş hesab edilirdi və hörmətli şəxslərə burada əyləşmək təklif olunurdu. Çadırın Şərq (sol) hissəsi qadının, Qərb (sağ) hissəsi isə kişi başlanğıcını bildirirdi (Жуковская, 1988: 136).

Türk çadırının ortasından dumanın, tüstünün rahat şəkildə çıxmasını təmin edən yumru boşluq olurdu. V.Radlov yazırdı ki, bu yumru boşluq ənənəvi olaraq bütün Türk çadırlarında mövcud idi (Radloff, 1956: 278-280). “Tüynük” adlanan bu yumru dəlik Türkün müqəddəs kimi qəbul etdiyi səma ilə, göy cisimləri ilə əlaqəni təmin edirdi. Bu dəlik həm təmiz havanın və işığın içəri girməsinə, həm də ocağın tüstü və dumanının çadırdan çıxmasına şərait yaradırdı. Yağışlı və soyuq havalarda isə həmin dəlik “tünlük” adlanan keçə ilə örtülürdü. Çadırın ətrafı “çiy” adlanan rəngli iplərdən hörülən, bəzəkli, naxışlı xalıya bənzəyən həsirlə örtülürdü. Daha sonra çadırın ölçüsünə uyğun olaraq ətrafı bütünlüklə keçə ilə örtülürdü. Soyuq havalarda bu keçələrin sayını artırırdılar ki, çadırın içi isti olsun (Çandarlı, 2016: 30-31). V.Radlov qeyd edirdi ki, yurdların (çadırların) içi, demək olar ki, hər yerdə eyni quruluşa malik olur (Radloff, 1956: 281).

Çadırın ortasında “qorluq” adlanan ocaq yeri mövcud idi. Ocaq yeri çadırın ən müqəddəs yeri hesab edilirdi (Boratov, 2020: 35). Qorluğu*n* alovu heç vaxt sönməzdi. Ocaq eyni zamanda soyun davamı mənasına da gəlirdi. Müasir dilimizdə işlənən “ocağı sönmək” ifadəsi də soyun tükənməsi mənasını ifadə edir. Bacasından duman çıxmayan çadırda həyat da olmurdu. Hətta yeni evlənən oğul yeni yurdun ocağını atasının ocağından aldığı od ilə yandırırdı ki, bu da soyun davamı mənasını verirdi. Alov həm də təmizləyici, saflaşdırıcı xüsusiyyətə də malik idi. Türklər od vasitəsi ilə bəd ruhları, şər qüvvələri qorxudurdular (Qumilyov, 2016: 105). Bunu Zərdüştlüklə əlaqələndirmək doğru deyil. Çünki Zərdüştlükdə od Dini baxımdan sitayiş obyekti, Türk tayfalarında isə magiya vasitəsi idi. Bu baxımdan Novruz bayramında insanların odun üzərindən tullanaraq ağırlıqlarını, xəstəliklərini oda tökməklə özlərini təmizləməsi də Zərdüştlüklə əlaqəsi olmayıb Türkün daha qədim ritualının qalığıdır.

Çadırın ortasında “surquk” adlanan çadır dirəyi qurulurdu ki, bu dirək çadırı salamat saxlayan əsas dirək hesab olunurdi. Əgər surquk dirəyi yıxılsa, çadır da yıxılırdı.



Yurd çadırının qərb tərəfində divar boyunca “yük” adlanan sandıqların, boxçaların, çuvalların düzüldüyü yer “dör” adlanırdı. Yükün önünə isə oturmaq üçün keçə və xalı sərilirdi. Dör, adətən, yaşlı, hörmətli, qonaqlar üçün nəzərdə tutulurdu və çadırın yuxarı tərəfi hesab olunurdu. Burada xüsusi naxışlı xalılar və keçələr sərilirdi. Kişi qonaqların yeri qapıdan girişdə sol tərəfdə olurdı. Sağ tərəf naxışlı həsirlə bölünür və qadınlar üçün nəzərdə tutulurdu. Qab-qacaq və s. mətbəx əşyaları da bu bölümdə yerləşirdi. Bu bölümün arxa hissəsini isə yataq otağı (orun) kimi istifadə edirdilər. Qapının sol tərəfindən at üçün lazım olan ləvazimatlar, yəhər və s. asılırdı. Qapının kənarı isə xidmətçilərin yeri idi (Çandarlı, 2016: 32-33).

Tarixi romanlar müəllifi kimi tanınan Azərbaycan yazıçısı Fərman Kərimzadənin “Xudafərin körpüsü” adlı əsərində də XVI əsr Türk çadırının təsviri aşağıdakı şəkildə təsvir edilir: “...Uzun Həsən çadırına girdi. Çadır alaçıq formasında dəyirmi qurulmuşdu və olduqca böyük idi. Çadırın divarı çubuqlardan hörülərək üstünə keçə çəkilmişdi. Çadırın baş tərəfində taxt qoyulmuş, divarın dibinə döşəkçələr düzülmüşdü. Alaçığın qapı yerindən örtü asılmışdı.” (Kərimzadə, 2002: 7). Hökmdar çadırına yanaşı olaraq üç çadır qurulurdu. Bu çadırlarda hökmdarların xanımları yaşayırdılar: “Sara Xatun yan-yana qurulan üç çadırdan hansına girəcəyini düşündü. Bu alaçıqlar gəlinlərinin çadırları idi…” (Kərimzadə, 2002: 7).

Eyni romanda monqol çadırının daxili interyeri də aşağıdakı kimi təsvir edilir: “…Sara Xatun başını əyib çadıra girdi. Bu çadır onun oğlunun alaçığına bənzəyirdi. Çadırın dirəkləri, tənəflərinin mıxları qızıldan idi. Hökmdar çadırı ağ idi. Bu ağ çadırın çöldən görünən qübbəsi

də məscid günbəzi kimi qızıldan idi. Çadırın içi də çox zəngin idi. Sultanın səfər taxtına tamaşa eləməyə iki göz gərək idi." (Kərimzadə, 2002: 9).

"Koroğlu" dastanının Türkmən variant olan "Goroğlu"da da "yurt" ifadəsi oba, el mənasında işlənir: "Əlqıssa, Çardaxlı Çandıbil deyilən bir yurt vardı. Bu yurtun Cığalı bəy adlı bir soltanı vardı" (Каррыев, 1983: 34).



Türk çadırlarının görünüş etibarilə də göy üzünü, səmanı xatırlatması və "Oğuz Kağan" dastanında "Göy üzü çadırımız, Günəş isə bayrağımız olsun" ifadəsi bu mifik təfəkkürün bədii ifadəsidir. Bu baxımdan göy qübbəsi dövləti, yurt – çadır isə ailəni simvolizə edirdi. Bu çadırlar həm də Türk mifoloji düşüncəsinin və qədim Türk inancının izlərini daşıyırdı.

"Çadır dikmək" ifadəsi "Dədə Qorqud" boylarında xüsusi formul kimi təkrarlanır. Oğuz sosial-mədəni sisteminin ayrılmaz və vacib atributu olan çadır epik təfəkkürdə də təkrarlana-təkrarlana dastan formuluna çevrilmişdir. Trabzon təkurunun qızı Selcan xatunu almaq üçün Qanturalı yoldaşları ilə 7 günlük yol gedəndən sonra "kafirin sərhədinə çatıb *çadır dikirlər.*" (KDQ, 2004: 107).

"Qazan bəgin dutsaq olub oğlu Uruz çıqardığı boy"da atasının sağ olduğunu biləndən sonra Uruz atasının ardınca gedəcəyini bildirir. Oğuz bəylərinə xəbər edirlər: "ləşkər dərildi, gəldi. Alp Uruz *çadırların açdırdı*, cəbbəxanasın yüklətdi" (KDQ, 2004: 160). Eyni boyun məzmununda düşmən təkuru da "çərisin dövşürüb meydana gəlir, *çadır tikdirir."* (KDQ, 2004: 160). Yenə həmin boyda Qazanla Beyrək arasındakı dialoqda oxuyuruq:

"Qazan burada bir dəxi soylamış, aydır:

Mərə yigit, önincə bu çərinin

Bir aq sancaqlu alay çıqdı.

*Çadırın ildən-ögdin dikdi.*

Ağ-boz ata binən ol yigit nə yigitdir?" (KDQ, 2004: 161).

Boyun sonunda düşmənə qalib gələn Qazan "görkli çəmənə çadır, otaq dikdirdi" (KDQ, 2004: 163).

Çadır Oğuz bəylərinin öz xalqına, tayfasına bağışladığı əşyalar sırasında da çox önəmli hədiyyə hesab edilirdi. Təşkil etdiyi məclisdə Ulaş oğlu Salur Qazan da "çırğab-çırğab çadır, otaq bağışlardı." (KDQ, 2004: 78).

Qara çadırlar isə yurd tipli çadırlardan həm xarici, həm də daxili quruluş baxımından fərqlənirdi. Qara çadırlarda ocaq yeri mərkəzdə yox, qapının yan tərəfində yerləşirdi. Qonaq üçün isə çadırın baş tərəfi nəzərdə tutulurdu. Buraya çoxlu yasdıqlar düzülürdü. Müxtəlif ölçüdə çuvalların olduğu bölüm isə "azıq yükü" və ya "azıqlıq" adlanırdı.

Türk xalqları tərəfindən istifadə edilən başqa bir çadır tipi də Alaçıq adlanırdı. Bu çadır qara çadıra nisbətən bir az dar olurdu. Sosial-maddi durumu nisbətən zəif olan obalar bu çadırdan istifadə edirdilər. Alaçıqların inşasında da ağacdan və keçədən istifadə olunurdu (Göner, Gülderen, 2022: 20).

“Kitabi-Dədə Qorqud”da da Oğuz elinin başçısı Bayındır xan haqqında belə deyilir: “Bir gün Qamğan oğlu Xan Bayındır yerindən durmuşdu. Şami günlügi yer yüzinə dikdirmişdi. *Ala sayvan gög yüzinə aşanmışdı.*” (KDQ, 2004: 24). Və ya “Qazılıq qoca oğlu Yegnək boyu”nda yenə oxuyuruq: “Qamğan oğlu xan Bayındır yerindən durmuşdu, qara yerin üzərinə ağ ban evin dikmişdi. *Ala sayvanı gög yüzünə aşanmışdı.*” (KDQ, 2004: 119). Bayındır xanın çadırı – “ala sayvan” hakimiyyətin simvolu sayılırdı. “Ağ ban ev”, “gög üzünə aşanmış ala sayvan” hökmdar çadırını ifadə etməklə, həm də mifoloji dünya modelini simvolizə edirdi.

“Bəkil oğlu Əmran boyu” da hakimiyyəti bildirən və dünya modelini simvolizə edən “çadır formulu” ilə başlayır: “Bayındır xan yenə “ağ ban evini qara yerin üzərinə dikdirir. Ala sayvanı gög yüzünə aşanır. Min yerdə ipək xalıçası döşənir.” (KDQ, 2004: 135).

Boyların əksəriyyətində təkrarlanan bu cümlə – formullar həm də boyların başlanğıcları arasında əlaqə yaradaraq onların bir-biri ilə əlaqələnməsinə xidmət edir. “Kitabi-Dədə Qorqud”da “Yum”lar boyların sonluqları arasında əlaqəni təmin edirsə, yuxarıdakı cümlə – formul da boyların başlanğıcını bir-biri ilə əlaqələndirir.

“Basatın Təpgözü öldürdüyü boy” yeganə boydur ki, “çadır dikmək” ifadəsindən – formulundan istifadə olunmayıb.

Dastanın ilk boyunda cəmiyyət üçün olduqca vacib hesab edilən bir problemin – övladsızlığın həlli də simvolik olaraq “üç çadır” obrazı ilə rəmzləndirirlir. Mətndə çadır həm də dünya modelini simvolizə edir. Oğlu olan ağ çadıra, qızı olan qızılı çadıra, övladı olmayanlar isə qara çadıra göndərilir. Deməli, arxaik-mifik təfəkkürdə ağ çadır soyun davamı olan oğlan övladını, qızıl çadır yaradıcı funksiyasını yerinə yetirən qız övladını simvolizə edirsə, qara çadır isə şəri, xaosu, zülməti təmsil edirdi. Professor Ramazan Qafarlı qeyd edir ki, “Göytürk qamlarının təsəvvüründə dünya yurt (çadır) şəklindədir. Kosmos hesab edilən Ağ yol (Süd yolu) çadırdakı tikişləri, ulduzlar isə işıq üçün açılan dəlikləri simvolizə edir. Hərdən Tanrılar yerə tamaşa etmək üçün çadırı açırlar.” (Qafarlı, 2017: 7). Tədqiqatçı “Dədə Qorqud”un birinci boyunda verilən 3 çadırı – 3 dünya mifik dünya modeli şəklində şərh edir. Ağ çadır yuxarı dünya – kişi başlanğıcını, qırmızı çadır orta dünya – qadın başlanğıcını, qara çadır isə aşağı dünya – ölümü simvolizə edirdi (Qafarlı, 2017: 7). Qam-şaman inancında da dünya 3 qatdan (Göy, yer və yeraltı dünya) ibarət idi.

“Kitabi-Dədə Qorqud”da “ağ ban ev” ifadəsi “çadır” termininin ekvivalenti qismində çıxış edir. Qalın Oğuzun dövləti sayılan Salur Qazan da “qara yerin üzərinə toqsan başlı ban evlərini (çadırlarını – N.A.) tikdirir.” (KDQ, 2004: 37). Və ya düşmən tərəfində talanan yurdunu soraqlayanda “ağ-ban evim dikiləndə yurdı qalmış”, – deyir (KDQ, 2004: 40). Qazan Qaraca çobanla rastlaşdıqda da yurdunu belə xəbər alır: “Ağ-ban evim şundan keçmiş gördün mü.” (KDQ, 2004: 42). Həmin boyda kafirlər də Qaraca çobana hədə-qorxu gələrkən belə deyir: “Qazan bəgün dünlügi altın ban evlərin biz yıqmışuz.” (KDQ, 2004: 38). Oğuz xanlarının oturduqları böyük çadıra – hökmdar çadırına “ağ ban ev” deyilirdi. Çadırın yuxarı başında – mərkəzdə hökmdar taxtı qoyulurdu. Hökmdarın sağında və solunda seçilmiş tayfa nümayəndələri otururdular.

Dastanın boylarında “otaq” ifadəsi də çadır mənasında işlənmişdir. Çadırların daha böyüklərini belə adlandırırdılar. Beyrəklə Banıçiçəyin ilk dəfə qarşılaşması səhnəsində oxuyuruq ki, nagahandan Oğuzun üzərinə bir sürü geyik gəlir. Bamsı Beyrək birini qova-qova bir yerə gəlir və görür ki, “göy çəmənin üzərinə bir qırmızı *otaq* dikilmiş.” (KDQ, 2004: 55). Mətndən oxuyuruq ki, Banıçiçəyin çadırı – otağı qırmızıdır. Hətta “Bamsı Beyrək” boyunun əvvəlində bəzirganların səfərdən döndüyünü eşidən Qambörə bəy də *“çətir otaq,* ala sayvan dikdirir.” (KDQ, 2004: 54). “Qazan bəg oğlu Uruz bəgin tutsaq olduğu boy”da da çadır əvəzinə otaq ifadəsindən istifadə olunur: “Bir gün Ulaş oğlu Qazan bəg yerindən durmuşdı. Qara yerin üzərinə *otaxların* dikdirmişdi.” (KDQ, 2004: 78). Qanturalı 3 vəhşini öldürdükdən sonra təkur da “qırx yerdə *otaq* tikdirir.” (KDQ, 2004: 112).

Dastanda Bamsı Beyrəyin də çadırı Ağ çadır idi. Çünki Beyrəyin öldüyü sonuncu boyda belə bir ifadə işlənir ki, "Beyrəyin ağ evi-eşiyində şivən qopdu." (KDQ, 2004: 168). Beyrəyin yalandan ölüm xəbərini aldıqdan sonra bacıları da "ağ çıxarıb qara geyirlər", "ağ otağı qoyub qara çadıra girirlər." (KDQ, 2004: 69). Dədə Qorqudun Banıçiçəyə elçilik səhnəsində Dəli Qarcarın da "ağ ban evini, *ağ otağını* qara yerin üzərinə qurdurduğunu" oxuyuruq (KDQ, 2004: 58). Mətndə işlənən "qurdurmaq", "dikdirmək" feilləri də semantik baxımdan çadıra istinad edir. "Çadır qurmaq" ifadəsi bu gün də dilimizdə işlənməkdədir. Dastanın sonuncu boyunda döyüşdən sonra Qazan da "göy ala çəmənə çadır tikdirir, otaq qurur." (KDQ, 2004: 169).

Dastanın sonuncu boyunda Aruzla Qılbaşın dialoqunda oxuyuruq: "Qalqubanı Qazan xan yerindən durı gəldi. Ala dağda *çadırın-otağın* dikdi." (KDQ, 2004: 165). Yenə həmin boyda Beyrəklə Aruz arasında olan dialoqda çadırın metaforik cəhətdən zindanla müqayisə edilməsi məzmuna xüsusi assosiativ rəngarənglik verir: "Mən Qazanın *ala bargah otağına* çoq girmişəm. Bilməzsəm, mana zindan olsun." (KDQ, 2004: 166).

Sonuncu boyda Dış Oğuz bəyləri Aruzun çağırışı ilə bir yerə yığışırlar. Bu münasibətlə bəylər "*ala bargah otaqlarını* düzə dikirlər." (KDQ, 2004: 165). Aruz Dış Oğuz bəyləri üçün "toy" adlanan xüsusi mərasim təşkil edir, "atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırdırır." (KDQ, 2004: 165).

"Uşun qoca oğlu Səgrək boyu"nda da Əgrək və Səgrək düşmən elindən sağ-salamat geri döndükdə Uşun qoca bunu eşidib şad olur: "Ol gün *ala bargah otaqlar* dikildi." (KDQ, 2004: 153). Uşun qoca oğlanlarının şərəfinə "ala bargah otaqlar" – çadırlar qurdurur. Deməli, Oğuz elində xüsusi günlərdə, özəl mərasimlərlə bağlı "ala bargah çadır"qurulurdu.

Dastan mətnində çadır əvəzinə bəzən "oda" terminindən də istifadə olunur. Baybörə bəy Beyrəyin sevdiyi qızın Banıçiçək olduğunu biləndə oğluna belə deyir: "Oğul, Qalın Oğuz bəglərini *odamıza* oxuyalım, necə məsləhət görərlərsə, ana görə iş edəlüm." (KDQ, 2004: 57).

Sonuncu boyda da Beyrəyin "öz *odasında* igidləri ilə yeyib-içməsi qeyd olunur." (KDQ, 2004: 166). Sonuncu boyda Beyrəyin ölüm xəbərini eşidən Qazan da "*odasına* girir, yeddi gün divana çıxmır, ağlayır." (KDQ, 2004: 168).

Dastanda bəzən çadır sözünün semantic mənası "ev" sözü ilə də ifadə olunur. Sonuncu boyda belə bir ifadə oxuyuruq ki, "Beyrək atına mindi, qırx igidlə Aruzun *evinə* gəldi." (KDQ, 2004: 166).

Oğuz Elində belə bir adət mövcud idi ki, evlənən igid ox atardı. Oxu hara düşsə, orada özünə toy çadırı qurardı. Bu çadıra "gərdək" deyərdilər: "Beyrək xan dəxi oxun atdı, dibinə *gərdəgin* dikdi." (KDQ, 2004: 60). Bu, evlənmə ərəfəsində oğuz igidinin qurduğu toy çadırının adı idi. Özü də bu toy çadırını evlənəcək igid dikdirməzdi (qurdurmazdı), özü "dikərdi" – qurardı. Bəlkə, bu da arxaik yaddaşda igidin yeni statusa keçidini təmin edən ritualın bir parçası sayılırdı. Yeni evlənən igid öz yuvasını özü qurmağı bacarmalı idi. Həmçinin "Qanlı qoca oğlu Qanturalı boyu"nda Trabzon təkuru da Qanturalı və Selcan xatun üçün "qırq yerdə ala *gərdək* dikdirir." (KDQ, 2004: 112). Qanturalı və Selcan xatunu gətirib gərdəyə qoysalar da, Qanturalı Oğuzun məşhur andını içir və gərdəyə girmədən öz yurduna geri qayıdır. Ümumiyyətlə, "Dədə Qorqud" qəhrəmanlarına xas olan mühüm xüsusiyyətlərdən biri də budur ki, qəhrəmanlar müxtəlif səfərlərə çıxıb qələbələr qazansalar da, tutduqları yerlərdə məscidlər tiksələr də, sonda mütləq öz yurdlarına geri dönürlər. Heç bir oğuz qəhrəmanı qürbət eldə yaşamır, qürbət eli özünə vətən bilmir. Oğuz igidləri arasında yeganə Qıyan Selcik oğlu Dəli Dondar idi ki, əvvəllər Dəmir qapı Dərvənddə bəylik etmişdi (KDQ, 2004: 120). Qanturalı da Selcan Xatun'u götürüb Oğuz elinə geri dönür. Oğuz sərhədinə çatdıqda "çadır dikir." Boyun sonunda oğlunun və gəlininin sağ-salamat geri döndüyünü görən Qanlı qoca da "göğ ala görklü çəmənə çadır dikir." (KDQ, 2004: 117).

"Bəkil oğlu Əmran boyu"nda oxuyuruq ki, Bayındır xanın tapşırığı ilə uc bəyi təyin olunan Bəkil yurdunu, elini tərk edib Oğuzdan köçür və Bərdəyə, Gəncəyə çatıb "vətən tutur."

(KDQ, 2004: 135). Burada diqqət çəkən maraqlı məqam "vətən tutmaq" ifadəsidir. Bəkil Oğuzdan birdəfəlik köç etdiyi üçün ozan *"çadır dikdi"* ifadəsini deyil, *"vətən tutdu"* ifadəsini işlədir. Yəni "çadır dikmək" ifadəsi oğuzların köçəri həyat tərzinin bədii ifadə şəklidirsə, "vətən tutmaq" ifadəsi oğuzların oturaq həyata keçidini simvolizə edən poetik ifadə şəklidir. Bəkil oğlu Əmran yeganə Oğuz igididir ki, döyüşdən sonra Bayındır xanın hüzuruna çıxır və xanın əlini öpür. Bayındır xan öz divanında Uruzun sağ yanında ona yer göstərir. Bu, Oğuzların öz sərhədlərinin qorunması və toxunulmazlığı məsələsinə verdiyi önəmin göstəricisi idi. Bundan əlavə, Əmran dastanda Dədə Qorqudun Oğuznamə qoşduğu ("Bu Oğuznamə Bəkil oğlu Əmranın olsun") 4 igiddən biridir (Bəkil oğlu Əmran, Yegnək, Dəli Domrul, Bamsı Beyrək).

Dastanda Oğuzların qalaları yoxdur. Oğuzlar üçün yurd, vətən anlayışı vardır. Onlar hər zaman kafir qalalarına hücum edirlər, kilsələri yıxıb əvəzinə məscid tikirlər. Məsələn, XI boyda Qazan da "Aq hasar qalasının bürcünü yıxdığını deyir." (KDQ, 2004: 158). Kafirlər Oğuzların hücumundan "qaçıb qalada gizlənirlər." (KDQ, 2004: 160). Oğuzlar isə hər zaman döyüşmək üçün "görklü çəmənə çadır tikirlər, cəbbəxana yüklədirlər, alaylar bağlayırlar, boru ağardıb köç edirlər." (KDQ, 2004: 161).

Dastan mətnində "oba" terminindən də istifadə olunur. "Duxa qoca oğlu Dəli Domrul boyu"nda oxuyuruq: "Məgər bir gün köprisinin yamacında bir bölük *oba* qonmuş idi. Ol *obada* bir yaxşı-xub yigit sayru düşmüş idi." (KDQ, 2004: 95). Oba köçəri çadırlarının mövcud olduğu yer demək idi.

**3. Nəticə**

Nəticə olaraq deyə bilərik ki, çadır Türk-etnik mədəni sisteminin ən vacib elementlərindən hesab edilirdi. Çünki, əsasən, köçəri həyat tərzi keçirən Türklər üçün tez bir zamanda qurulub sökülə bilən yaşayış yeri daha rahat idi. Bu yaşayış məskəninin quruluşca müxtəlif növləri mövcud idi. "Kitabi-Dədə Qorqud"da çadır yurd, otaq, çadır, oda, gərdək, bargah, gərdək və s. adları ilə təsvir olunur. Oğuz tayfa birlikləri sosial və maddi statuslarından asılı olaraq müxtəlif formalı çadırlardan istifadə etmişlər. Çadırların quruluşu eyni zamanda elin, tayfanın sosial-maddi durumu haqqında da müəyyən etnoqrafik məlumatlar verirdi. Dastanın birinci boyunda təsvir olunan "üç çadır" yuxarıda da qeyd etdiyimiz kimi, Türkün üç qatlı dünya modelinin simvolik ifadəsi idi. Türklərin inanc və düşüncə tərzi onların çadır ənənəsinə də yansımışdır. Bu da öz növbəsində göstərir ki, çadır Türk mədəniyyətinin ən vacib ünsürlərindəndir. Eyni zamanda, çadırın quruluşu bir daha sübut edir ki, Türk mifik düşüncədə, arxaik təfəkkürdə həm də həyatın başlanğıcı sayılan 4 ana ünsürlə bağlı olmuşdur və bu onun həyat tərzində də öz əksini tapmışdır.

Azərbaycanda XX əsrin 90-cı illərindən sonra müharibə nəticəsində öz yurdlarından köçkün düşən yüz minlərlə soydaşımız illərlə çox ağır şəraitdə çadırlarda yaşamağa məcbur olmuşdur. Buna görə də XX əsrin 90-cı illərindən sonra Azərbaycan ədəbiyyatında çadır obrazı daha çox dərdin, kədərin, vətən həsrətinin poetik simvoluna çevrilmişdir.

Çadır bu gün də Orta Asiya Türklərinin, heyvandarlıqla məşğul olaraq köçəri həyat tərzi keçirən xalqların məişətinin ən vacib elementlərindən sayılır. Quruluş etibarilə bir sıra əski ənənələr qorunsa da, müasir dövr Türk çadırlarının iç və çöl interyerində müəyyən fərqlər də meydana gəlmişdir.

**Kaynaklar**

Abbasov, E. (2021). *Mifoloji və Dini İnamlar Kontekstində Türk Eposu, Hakimiyyət Simvolları və Rituallar*. Bakı: Elm və təhsil.

Boratov, P.N. (2020). *Türk Mitolojisi: Oğuzların-Anadolu, Azerbaycan ve Türkmenistan Türklerinin Mitolojisi*. Ankara: Bilgesu Yayınları.

Bozkurt, N. (1993). "*Çadır"*. Türk Diyanet Vakfı. İslam Ansiklopedisi. C.8. İstanbul. TDV Yayınları.

Çandarlı, A.Ş. (2016). *Türk Çadırı Üzerine*. *Tarihin Peşinde*. *Uluslararası Tarih ve Sosyal Araştırmala Dergisi*, sayı 16.

Göner, G, Gülderen, G. (2022). *Türklerde Çadır Kültürünün Gelişimi. Genç Akademisyenler Birliği Sosyal Bilimler Dergisi,* Cilt 2, Sayı 3, Aralık.

Jean, P.R. (2015). *Türklerin Tarihi*. (Çev. Aykut Kazancıgül-Lale Arslan), İstanbul: Kabala Yayınları.

Kaşğari, M. (2006). *"Divani Lüğat-it-Türk"*. 4 cilddə. I cild. Tərcümə edən və nəşrə hazırlayan: Əskər R., Bakı: Ozan

Kərimzadə, F. (1982). *Xudafərin Körpüsü*. Bakı: Yazıçı.

*Kitabi-Dədə Qorqud*. (2004). Bakı: Öndər.

Ögəl, B. (2006). *Türk Mifologiyası*. II cild. Bakı: MBM.

Qafarlı, R. (2017). *"Dədə Qorqud" Eposunda Çadır Mifik Dünya Modeli və Vətən Obrazı Kimi*. Qorqud (elmi-ədəbi) toplu. II, Bakı: Elm və təhsil.

Qumilyov, L. (2016). *Qədim Türklər*. Bakı: Kitab klubu.

Radloff, W. (1956). *Sibiryadan II*. (Çev. Ahmet Temir), İstanbul: Maarif Basımevi.

Жуковская, Н.П. (1988). *Категориии символика традиционной культура монголов*. Москва: Наука.

Каррыев, Б.А. (1983). *Туркменский героический эпос «Гер-оглу»*. Москва: Наука.

**Etik, Beyan ve Açıklamalar**

**1.** Etik Kurul izni ile ilgili;

☑ Bu çalışmanın yazar/yazarları, Etik Kurul İznine gerek olmadığını beyan etmektedir.

**2.** Bu çalışmanın yazar/yazarları, araştırma ve yayın etiği ilkelerine uyduklarını kabul etmektedir.

**3.** Bu çalışmanın yazar/yazarları kullanmış oldukları resim, şekil, fotoğraf ve benzeri belgelerin kullanımında tüm sorumlulukları kabul etmektedir.

**4.** Bu çalışmanın benzerlik raporu bulunmaktadır.